Jon-Mal Lat:Azeri Bible Cyrillic 22.01.2009 13:01 Page 1098

# MİKEYA
## PEYĞƏMBƏRİN KİTABI
## GİRİŞ

Mikeya peyğəmbər Yeşaya peyğəmbərlə bir dövrdə yaşamışdı. O, cənub padşahlığında, Yəhudanın bir kəndində anadan olmuşdu. O, Amos peyğəmbərin şimal padşahlığına çatdırdığı milli fəlakətin eyni şəkildə Yəhudanın da başına gələcəyinə əmin idi. Allah ədalətsizliyə görə xalqı cəzalandıracaqdı. Amma Amosdan fərqli olaraq Mikeyanın peyğəmbərliyində daha aydın, ümidli gələcəyin əlamətləri var. Bu hissələr xüsusilə diqqəti cəlb edir: Rəbbin bütün dünyada əmin-amanlıqla hökmranlıq etməsi (4:1-4), Davud nəslindən böyük hökmdarın gəlməsi və onun bütün millətlərə sülh gətirməsi (5:2-5a) barəsində peyğəmbərlik İsrail peyğəmbərlərinin dediklərinin ümumi nəticəsi kimi 6:8-də yekunlaşdırır:

*«Ey insan, Allah sənə yaxşı olanı bildirdi;*
*Ədalət yaratmaqdan, məhəbbət göstərməyi sevməkdən,*
*İtaətkarcasına Allahınla bir yol getməkdən başqa*
*Rəbb səndən nə istəyir ki?»*

***Kitabın məzmunu:***

1:1-3:12 İsrailin günahı
4:1-5:15 Rəbbin bütün dünyada əmin-amanlıqla hökm sürməsi
6:1-7:20 Rəbbin İsrailə xəbərdarlığı və ümid verməsi

***Samariya və Yerusəlim üçün mərsiyə***

1 1Yəhuda padşahları Yotam,[1]
Axaz[2] və Xizqiyanın[3] dövründə
Samariya və Yerusəlim barəsində
Moreşetli Mikeyaya görüntü ilə Rəb-
bin bu sözü nazil oldu.
2Eşidin, ey bütün xalqlar,
Qulaq asın, yer üzü və orada
yaşayanlar!
Qoy Xudavənd Rəbb sizə qarşı
müqəddəs məbədindən
Şəhadət etsin.
3Budur, Rəbb göylərdəki taxtından
enir,
Yer üzünü dağların zirvəsi ilə gəzir.
4Od yanında əriyən mum tək
önündə dağlar əriyəcək,
Təpələrdən gələn sellər tək
yarğanlar açacaq.

5Bunlar Yaqub övladlarının
üsyankarlığına,
İsrail xalqının günahlarına görədir.
Yaqub övladlarının üsyankarlığına
görə
Axı kimdir müqəssir? Samariya

**1:1** – [1]*2Pad. 15:32-38; 2Saln. 27:1-7;* [2]*2Pad. 16:1-20; 2Saln. 28:1-27*
**1:1** – [3]*2Pad. 18:1-20:21; 2Saln. 29:1-32:33*

Jon-Mal Lat:Azeri Bible Cyrillic 22.01.2009 13:01 Page 1099



deyilmi?
Yəhudanın bütpərəstliyinə görə
Axı kimdir təqsirkar? Yerusəlim
deyilmi?
6«Buna görə Mən Rəbb Samariyanı
yerlə yeksan edəcəyəm,
Yerində üzümlük salınacaq.
Daşlarını dərəyə tökəcəyəm,
Təməllərini açıq qoyacağam.
7Samariyanın bütün oyma bütləri
parça-parça olacaq,
Məbədinə verilən hədiyyələr
yandırılacaq,
Bütün heykəllərini dağıdacağam.
Axı bu hədiyyələr fahişəlik haqqı
ilə yığılmışdı,[a]
Onlar yenə də fahişələr üçün
işlədiləcək».

8Buna görə Mən Mikeya, ağlayıb
göz yaşı axıdacağam,
Ayaqyalın, lüt-üryan dolaşacağam,
Çaqqal kimi ulayacağam,
Bayquş kimi səs salacağam.
9Samariyanın yaraları sağalmaz,
Yəhudayadək yayılıb,
Xalqımın darvazalarınadək,
Yerusəlimədək çatıb.

### *Düşmən Yerusəlimə yaxınlaşır*

10Bunu Qatda bildirməyin,
Önlərində ağlamayın.
Bet-Leafrada[b] toz-torpaqda
yuvarlanın.
11Siz ey Şafir[c] sakinləri,
Lüt-üryan, xəcalət içində əsarətə
gedin!
Saananda[d] yaşayanlar oradan çıxa
bilməyəcək.
Bet-Esel əhli yas tutacaq,
Köməyini sizdən çəkəcək.
12Marot[e] əhalisi xeyir arzulasa da,
Rəbb Yerusəlimin darvazasına
bəla gətirir.
13Ey Lakiş[f] sakinləri, atlarınızı
Döyüş arabalarına qoşun
Sion qızını günaha batırdınız,
İsrailin üsyankarlığına bais
oldunuz!
14Buna görə Moreşet-Qata[g] cehiz
verəcəksiniz,
Akziv[h] şəhəri İsrail padşahlarını
aldadacaq.
15Ey Mareşa[i] sakinləri,
Rəbb üzərinizə yenə istilaçı
gətirəcək,
Adullam mağarasına İsrailin
adlı-sanlı adamları sığınacaq.
16Ey Yəhuda, əziz balalarından ötrü
saçını qırx,
Qoy başın kərkəs başı kimi keçəl
olsun,
Çünki övladların sürgünə
aparılacaq!

### *Kasıblara zülm edənlərin taleyi*

2 1Yatağında şər niyyətdə
olanların,
Yamanlıq üçün qəsd quranların
vay halına!
Onların gücü buna çatdığına görə
Ona səhər tezdən əməl edirlər!
2Tarlalara tamah salıb
mənimsəyirlər,
Evlərə göz dikib sahib dururlar.
Ev sahibi ilə ailəsinə zülm edirlər,

a **1:7** Burada bütpərəst məbədlərində tətbiq olunan mərasim nəzərdə tutulur.
b **1:10** *Bet-Leafra* – ibrani dilində *toz evi.*
c **1:11** *Şafir* – ibrani dilində *xoş.*
d **1:11** *Saanan* – ibrani dilində *çıxmaq.*
e **1:12** *Marot* – ibrani dilində *acı.*
f **1:13** *Lakiş* – ibrani dilində *bir dəstə at* sözünə oxşayır.
g **1:14** *Moreşet* – ibrani dilində *gəlin* sözünə oxşayır.
h **1:14** *Akziv* – ibrani dilində aldatmaq.
i **1:15** *Mareşa* – ibrani dilində *istilaçı.*

Jon-Mal Lat:Azeri Bible Cyrillic 22.01.2009 13:01 Page 1100



Adamları mirasından məhrum
edirlər!
3Buna görə də Rəbb belə deyir:
«Bu xalqa bəla gətirməyə
hazırlaşıram,
Ondan boyun qaçıra
bilməyəcəksiniz.
Siz bir daha dikbaş
gəzməyəcəksiniz,
Çünki pis zaman gəlir.
4O gün sizi lağa qoyub,
Belə yanıqlı mərsiyə oxuyacaqlar:
"Biz tamam məhv olduq!
Rəbb xalqımın payını dəyişdirdi,
Onu necə məndən uzaqlaşdırdı,
Tarlamızı satqınlara payladı".
5Buna görə ölkə yenə püşklə
bölünsə də,
Rəbbin camaatı arasında sizə
pay verəcək kimsə olmayacaq».

***Yalançı vaizlər***

6Adamlar deyir:
«Vəz etməyin,
Bu işlər barədə vəz etməyin,
Rüsvay olmayacağıq!»
7Ey Yaqub nəsli, belə deyilirmi:
«Məgər Rəbbin səbri tükəndi?
O belə şeylər edərmi?»
Mənim sözlərim düzgün yolla
gəzənlərin xeyrinə deyilmi?
8Dünən xalqım idiniz,
Bu gün isə Mənə düşmən oldunuz.
Müharibədən qayıdanların,
Yoldan sakit keçənlərin
Əynindən paltarlarını alıb
Onları soyursunuz.
9Xalqımın qadınlarını
Rahat evlərindən qovursunuz,
Uşaqlarını Mənim verdiyim
bərəkətdən
Əbədilik məhrum edirsiniz.
10Qalxın gedin,
Çünki bura istirahət yeri deyil.
Bu yer murdarlandığına görə
Dəhşətli surətdə darmadağın
olacaq.
11Əgər bir adam hiyləgər ruhla gəlib
yalan vəz edib desə:
«Sənə vəz edim, şərab və başqa
kefləndirici içkiniz bol olacaq»,
Bu adam xalqın vaizi olar!

***Rəbbin ümid vədi***

12Ey Yaqub övladları,
Mən mütləq hamınızı bir yerə
yığacağam,
İsrailin sağ qalanlarını
toplayacağam.
Sizi ağıldakı qoyun-keçi kimi
bir yerə yığacağam.
Otlaqdakı sürü kimi ölkəniz
adamlarla dolacaq.
13Azad edən qalxacaq,
Sağ qalanların yolunu açacaq.
Onlar darvazanı qıracaq,
Oradan keçib-çıxacaq.
Padşahları onların qabağında
gedəcək,
Rəbb önlərində gedəcək.

***Mikeya İsrail rəhbərlərini ittiham edir***

3 1Onda mən dedim:
«Dinləyin, ey Yaqub rəhbərləri,
Ey İsrail xalqının başçıları!
Axı siz ədalətli olmalısınız!
2Siz ki yaxşıya nifrət edirsiniz,
Pisliyi sevirsiniz,
Xalqımın dərisini soyursunuz,
Ətini sümüklərindən qoparırsınız,
3Siz xalqımın ətini yeyirsiniz,
Dərisini soyursunuz, sümüyünü
qırırsınız.
Sanki qazanda, tavada bişirilən
ət kimi

Jon-Mal Lat:Azeri Bible Cyrillic 22.01.2009 13:01 Page 1101



Xalqımı doğrayırsınız.
4Gün gələcək, Rəbbə fəryad edəndə
O sizə cavab verməyəcək.
O zaman Rəbb üzünü sizdən
gizlədəcək,
Çünki əməlləriniz pis olub».

5Xalqını azdıran peyğəmbərlərə
qarşı
Rəbb belə deyir:
«Yeməyiniz olanda
Sülh bəyan edirsiniz.
Sizə çörək verməyənlərə isə
Dava elan edirsiniz».
6Buna görə sizə görüntüsüz gecə
gələcək,
Qaranlıqda falçılıq edə
bilməyəcəksiniz.
Peyğəmbərlər üçün günəş batacaq,
Gündüz onlar üçün zülmət olacaq.
7Görücülər rüsvay olacaq,
Falçılar biabır olacaq,
Onların hamısı bundan utanıb
susacaq,
Çünki Allahdan cavab olmayacaq.

8Mən isə Yaqub övladlarına
üsyankarlığını,
İsrailə günahını bildirmək üçün
Qüvvətlə, Rəbbin Ruhu ilə,
Ədalət və cəsarətlə qurşanıram.
9Bunu dinləyin, ey Yaqub
rəhbərləri,
Ey İsrail xalqının başçıları!
Siz ədalətə nifrət edirsiniz,
Hər cür düzlüyü əyriyə çevirirsiniz.
10Sionu qan bahasına bina edirsiniz,
Yerusəlimi haqsızlıq üzərində
tikirsiniz.
11Rəhbərləri rüşvətlə hökm edir,
Kahinləri muzdla təlim verir,
Peyğəmbərləri falçılıq edib pul alır.
Amma Rəbbə güvənərək belə
deyirlər:
«Rəbb aramızda deyilmi?
Üstümüzə bəla gəlməz».
12Buna görə də sizin üzünüzdən
Sion tarla kimi şumlanacaq,
Yerusəlim daş qalağına,
Məbədin tikildiyi dağ
Meşəli təpələrə çevriləcək.

***Rəbb bütün dünyada əmin-amanlıqla hökm sürəcək***

*(Yeş. 2:2-4)*

4 1Axır zamanda Rəbbin evi olan
dağ
Dağların zirvəsində möhkəm
duracaq,
Təpələrdən yuxarı ucalacaq.
Xalqlar ona sarı gələcək.
2Çox millətlər gəlib deyəcək:
«Gəlin Rəbbin dağına,
Yaqubun Allahının evinə qalxaq,
Qoy Rəbb bizə Öz yollarını
öyrətsin,
Biz Onun rizləri ilə gedək».
Siondan Rəbbin təlimi,
Yerusəlimdən Onun kəlamı
yayılacaq.

3Rəbb çox xalqlar arasında
hakim olacaq,
Güclü millətlər haqqında qərar
çıxaracaq.
Onlar qılınclarından kotan,
Nizələrindən isə dəryaz
düzəldəcək.
Millət millətə qarşı qılınc
qaldırmayacaq,
Artıq dava etməyi öyrənməyəcək.
4Hər kəs öz meynəsinin, əncir
ağacının altında əyləşəcək,
Onları qorxudan olmayacaq.
Ordular Rəbbi belə söz verdi.
5Bütün xalqlar,

**3:12** *Yer. 26:18* **4:3** *Yoel 3:10* **4:4** *Zək. 3:10*

Jon-Mal Lat:Azeri Bible Cyrillic 22.01.2009 13:01 Page 1102



Öz allahlarının adı ilə getsələr belə,
Biz daim və əbədi
Allahımız Rəbbin adı ilə gedirik.

### *Rəbbin xalqı sürgündən qayıdacaq*

6«Gün gələcək» Rəbb bəyan edir,
«Mən şikəstləri yığacağam,
İncitdiyim pərən-pərən düşən xalqı
Bir yerə toplayacağam.
7Şikəstləri sağ qalan xalq edəcəyəm,
Atılanları güclü millətə
çevirəcəyəm.
Mən Rəbb onlara Sion dağından
İndidən sonsuzadək hökm
edəcəyəm».

8Sən, ey Yerusəlim, sürüyə nəzarət
edən qüllə,
Sion qızının qalası,
Əvvəlki hakimiyyət sənə yenidən
veriləcək,
Yerusəlim qızının səltənəti gələcək.

9İndi nə üçün uca səslə çağırırsan?
Niyə doğan qadın kimi ağrı
çəkirsən?
Məgər sənin yanında padşah
yoxdurmu?
Məsləhətçilərin həlak olubmu?
10Ey Sion qızı, ağrıdan qovrul,
Doğan qadın kimi bərkdən qışqır,
Çünki şəhərdən çıxıb, çöldə
yaşayacaqsan,
Babilə qədər gedəcəksən.
Lakin orada xilas olacaqsan,
Rəbb səni düşmənlərinin əlindən
satın alacaq.

11Amma indi çox millətlər
Sənə qarşı birləşib belə deyir:
«Qoy Sion rüsvay olub
murdarlansın!
Bunu öz gözümüzlə görək!»
12Lakin onlar Rəbbin düşüncələrini
bilmir,
Məsləhətini anlamır.
Xırmanda yığılan dərzlər kimi
Rəbb onları bir yerə toplamışdır.
13Rəbb belə deyir: «Ey Sion qızı,
Qalx, xırmandakı taxılını döy!
Səni dəmir buynuzlu buğa kimi,
Tunc dırnaqlı öküz kimi güclü
edəcəyəm.
Sən çox xalqları əzəcəksən,
Onların qənimətini Mənə – Rəbbə,
Mal-dövlətini bütün yer üzünün
Sahibinə həsr edəcəksən».

5 1Ey qoşunlar qızı, indi
qoşunlarını topla!
Bizi dövrəyə alıblar,
İsrail hökmdarının üzünə
dəyənəklə vuracaqlar.

### *Gələcək kamil hökmdar*

2Rəbb deyir:
«Ey Bet-Lexem Efrata, sən
Yəhuda nəsillərinin kiçiyi olsan
da,
Mənim üçün İsrail üzərində
Hökmdar səndən çıxacaq.
Onun nəsli çox qədimlərə,
Zamanın başlanğıcına gedir».
3Hamilə qadın doğana qədər
Rəbb Öz xalqını təslim edəcək.
İsrail övladlarının yanına
Qalan qohumları qayıdacaq.
4Bu hökmdar Allahı Rəbbin
əzəmətli adı ilə qalxacaq,
Rəbbin gücü ilə sürüsünü otaracaq.
Çünki yer üzünün
qurtaracağınadək hər yerdə o
böyük olacaq,
5Xalq onun bəxş etdiyi sülhlə
yaşayacaq.

**5:2** *Mat. 2:6; Yəh. 7:42*

### *Qurtuluş və cəza*

Əgər Aşşurlular ölkəmizə gələrsə,
Qalalarımıza ayaq açarlarsa,
Onlara qarşı başçılarımız –
Xalqımızdan olan çoxlu
rəhbərlərimiz çıxar.
6 Qılıncla Aşşur torpaqlarını,
Nəmrud ölkəsini viran edəcəklər.
Aşşurlular torpağımıza gələndə,
Sərhədimizi keçəndə
Bizi rəhbərlərimiz qurtaracaq.
7 Yaqub nəslinin sağ qalanları
Çoxlu xalqlar arasında
Heç kimi gözləmədən,
Bəşər övladlarından asılı olmadan
Rəbbin göndərdiyi şeh tək,
Ot üzərinə tökülən leysan kimi
olacaq.
8 Yaqub nəslinin sağ qalanları
Çoxlu xalqların, millətlərin
arasında
Sanki meşə heyvanları arasındakı
şir,
Qoyun sürüsü arasındakı gənc
aslandır.
Sürünün içinə girsə, didib dağıdar,
Heç kəs ondan qurtula bilməz.
9 Əlin düşmənlərin üzərinə qalxacaq,
Ey İsrail, yağıların məhv olacaq!

10 «Gün gələcək» Rəbb bəyan edir,
«Atlarınızı qıracağam,
Döyüş arabalarınızı yox edəcəyəm.
11 Ölkənizdəki şəhərləri darmadağın
edəcəyəm,
Bütün qalalarınızı yerlə yeksan
edəcəyəm.
12 Əlinizdəki cadugərliyi
məhv edəcəyəm,
Sizdə gələcəyideyənlər bir daha
olmayacaq.
13 Sizin bütlərinizi qıracağam,
Daş sütunlarınızı söküb-
dağıdacağam.
Əllərinizlə düzəltdiyiniz əşyaya
Artıq səcdə etməyəcəksiniz.
14 Sizin Aşera bütlərinizi
qırıb-dağıdacağam.
Şəhərlərinizi viran qoyacağam.
15 İtaətsiz millətlərdən qəzəblə,
hiddətlə qisas alacağam».

### *Rəbbin İsrailə qarşı ittihamı*

6 1 Rəbbin nə dediyini indi
dinləyin:
«Məhkəmə qarşısında durun,
Qoy dağlar bunun şahidi olsun,
Qoy təpələr səsinizi eşitsin!
2 Ey dağlar və yerin sarsılmaz
təməlləri,
Rəbbin ittihamını eşidin!
Rəbb Öz xalqını ittiham edir,
İsraili məhkəməyə verir.

3 Ey xalqım, nə etmişəm sənə?
Nə ilə yormuşam səni?
Mənə cavab ver!
4 Səni Misir torpağından çıxaran,[1]
Köləlik diyarından sizi satın alan,
Musanı, Harunu,[2] Məryəmi,
Sənin qabağına göndərən Mən
oldum.
5 Ey xalqım, sənə qarşı
Moav padşahı Balaqın
niyyətlərini,
Beor oğlu Bilamın ona nə cavab
verdiyini xatırla,[1]
Şittimdən Qilqala gedəndə yolda
nə baş verdiyini[2] xatırla ki,
Rəbbin sənə göstərdiyi sədaqətini
biləsən».

---

**5:6** *Yar. 10:8-11* **6:4** – [1]*Çıx. 12:50-51;* [2]*Çıx. 4:10-16; 15:20* **6:5** – [1]*Say. 22:2-24:25*
**6:5** – [2]*Yeşua 3:1-4:19*

### *Rəbbin adamlardan istəyi*

6Rəbbin hüzuruna nə ilə gedim?
Uca Allaha necə səcdə edim?
Önünə yandırma qurbanları ilə –
Birillik danalarla çıxımmı?
7Minlərlə qoç qurbanı,
Zeytun yağının on minlərlə seli
Rəbbin xoşuna gələrmi?
Üsyankarlığıma görə ilk oğlumu,
Günahım üçün öz övladımı
verimmi?
8Ey insan, Allah sənə yaxşı olanı
bildirdi;
Ədalət yaratmaqdan, məhəbbət
göstərməyi sevməkdən,
İtaətkarcasına Allahınla bir yol
getməkdən başqa
Rəbb səndən nə istəyir ki?

9Rəbbin səsi şəhərə nida edir,
Onun adından qorxmaq
hikmətdir.
«Ey şəhərdə toplanan camaat,
eşidin!
Ey şəhər sakinləri, dinləyin!
10Məgər pislərin evindəki haram
mal-dövlətdən,
Lənətli əskik ölçülərdən xəbərim
yoxdur?
11Saxta tərəzi və aldadıcı çəki
daşlarından
İstifadə edəni haqlı sayarammı?
12Şəhərin varlıları zorakılıq edir,
Sakinləri adamları aldadır –
Yalanla nəfəs alır.
13Buna görə Mən sizi vurmağa,
Günahlarınıza görə əzab verməyə
başladım.
14Yeyəcəksiniz, amma
doymayacaqsınız,
Qarınlarınız boş qalacaq.
Sərvət yığacaqsınız, amma
saxlamayacaqsınız,
Qılıncla topladığınızı
məhv edəcəyəm.
15Siz əkəcəksiniz, amma
biçməyəcəksiniz,
Zeytun sıxacaqsınız, yağından ətir
düzəltməyəcəksiniz,
Üzüm sıxacaqsınız, şərab
içməyəcəksiniz.
16Axı padşah Omrinin[1] qaydalarına
riayət etmisiniz,
Axav[2] sülaləsinin adətlərinə
uymusunuz,
Onların məsləhətinə görə
getmisiniz,
Buna görə də sizi viranəliyə
döndərəcəyəm,
Sakinlərinizi rişxənd hədəfinə
çevirəcəyəm,
Xalqım olduğunuz üçün rüsvay
ediləcəksiniz».

### *Mikeyanın mərsiyəsi*

7 1Vay halıma!
Mən bir adama bənzəyirəm ki,
Yay mövsümündən sonra
Meyvəsi tamam yığılmış,
Tənəkləri təmizlənmiş,
Nə üzüm salxımı,
Nə də könlü istəyən bir dənə əncir
yeməyə qalıb.
2Ölkədə Allaha sadiq adam
qalmadı,
İnsanlar arasında doğru adam
tükəndi.
Hamı qan tökmək üçün pusquda
durur,
Qardaş qardaşa tələ qurur.
3Pis işlərə əlləri zirək olur,
Rəislər, hakimlər rüşvət tələb edir,

**6:16** – [1]*1Pad. 16:23-28;* [2]*1Pad. 16:29-34; 21:25-26*

Jon-Mal Lat:Azeri Bible Cyrillic 22.01.2009 13:01 Page 1105



Dövlətlilər istədiklərini edir,
Hamısı hiylə ilə iş görür.
4Bunların ən yaxşısı tikandan
dəyərsizdir,
Ən salehi də alaq otundan pisdir.
Peyğəmbərlərin xəbərdarlıq etdiyi
kimi
Cəza günü gəldi.
İndi siz çaşbaş qalmısınız.
5Qonşunuza inanmayın,
Dostunuza bel bağlamayın,
Hətta qoynunuzda yatan
arvadınızdan belə,
Ağzınızı möhkəm saxlayın.
6Çünki oğul atasına xor baxır,
Qız anasına, gəlin də qayınanasına
qarşı qalxır.
İnsanın düşməni öz ev əhli olub.
7Mən isə Rəbbə baxacağam,
Məni xilas edən Allahı
gözləyəcəyəm.
O məni xilas edəcək,
Allahım məni eşidəcək.

***Qurtuluş yolu***

8Halıma sevinmə, ey düşmənim!
Mən yıxılsam da, qalxacağam.
Qaranlıqda olsam da,
Rəbb mənim nurum olacaq!
9Mənə bəraət qazandırıb
Hökmünü icra edənə qədər
Rəbbin qəzəbinə dözəcəyəm,
Çünki Ona qarşı günah işlətdim.
O sonra məni işığa çıxaracaq,
Onun salehliyini görəcəyəm.
10Düşmənim bunu görüb xəcalət
çəkəcək.
O mənə demişdi:
«Allahın Rəbb haradadır?»
Bu düşmənin məğlubiyyətini
görəcəyəm,
O, küçələrdə palçıq kimi
tapdalanacaq.

11Ey Yerusəlim, divarlarının bərpa
günü yaxınlaşır,
O gün sərhədlərin genişlənəcək.
12O gün xalqın Aşşurdan,
Misir şəhərlərindən,
Misirdən Fərat çayına qədər
uzanan torpaqlardan,
Dənizdən dənizədək, dağdan
dağadək,
Sənin yanına qayıdacaq.
13Lakin sakinlərinin əməllərinə görə
Yer üzü viran olacaq.

***Rəbbin İsrailə məhəbbəti***

14Ya Rəbb, mirasın olan sürünü –
Öz xalqını çomağınla otar.
O, çöldə indi tənha qalır,
Ətrafında isə yaxşı otlaq var.
Qoy keçmiş günlərdəki kimi
Başan və Gileadda otlasınlar.

15«Misirdən çıxdığın günlərdəki
kimi
Sizə möcüzələr göstərəcəyəm».

16Millətlər bunu görəcək,
Öz qüvvətlərinə görə utanacaq.
Əlləri ilə ağızlarını yumacaq,
Qulaqları kar olacaq.
17İlan kimi torpağı yalayacaq,
Əsə-əsə yuvalarından sürünənlər
kimi çıxacaq.
Ey Allahımız Rəbb, onlar Səndən
qorxub
Dəhşət içində Sənə tərəf dönəcək.

18Sağ qalan xalqının cəzasını aradan
götürən,
Üsyankarlığını bağışlayan
Sənin kimi Allah varmı?
Qəzəbini əbədi saxlamazsan,
Çünki məhəbbət göstərməyi

**7:6** *Mat. 10:35-36; Luka 12:53*

Jon-Mal Lat:Azeri Bible Cyrillic 22.01.2009 13:01 Page 1106



xoşlayırsan.
19 Yenə bizə rəhm edib şər
əməllərimizi siləcəksən,
Bütün günahlarımızı
Dənizin dərinliklərinə atacaqsan.
20 Qədim zamanda atalarımıza and
içdiyin kimi
Yaqub nəslinə sədaqətini,
İbrahim övladlarına məhəbbətini
göstərəcəksən.